**UOT 791-2/-5**

**Gülnarə Kərim qızı Hüseynova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**e-mail: sevda. kerimli. 2014@mail. ru**

# ÇİN KİNEMATOQRAFİYASININ YARANMASI VƏ İNKİŞAFI

**Xülasə:** Çin müasir dünya kinosunun ən nüfuzlu ölkələrindən biridir. Bu gün Çin kino sahəsində təkcə sərt reallıqdan bəhs edən ciddi filmlərlə deyil, eyni zamanda digər janrlarla da məşhurdur. Çin döyüş filmləri, ənənəvi əfsanələrə əsaslanan fantaziya və komediyalar hal-hazırda Çini dünyanın ikinci ən böyük film bazarına çevirib. Ölkə indiki inkişaf həddi ilə bütün mümkün reytinqlərin zirvəsinə doğru irəliləyir və bəzilərinin fikrincə, yaxın zamanda Çin kinosu Hollivudu çox geridə qoya biləcək.

**Açar sözlər:** Çin, kino, tarix, mədəni inqilab, rejissor, film, mükafat.

Belə bir fikir var ki, Çində kino, əvvəlcə, bir növ qədim sənət - kölgə teatrı hesab olunurdu, ona görə də Çin dilində film "elektrik kölgələr" adlanır.

Çində "hərəkətli şəkillər"in ilk qeydə alınmış nümayişi 11 avqust 1896-cı ildə Çin kinematoqrafçılarının uzun illər mərkəzinə çevrilmiş Şanxayda baş tutdu. İlk filmlər Pekində1902-ci ildə nümayiş etdirilmişdir. Çində kino istehsalı 1905-ci ildə, pekinli fotoqraf Ren Qinqtai tərəfindən məşhur aktyor Tan Xingpeinin baş rolda oynadığı "Dinqjunşan döyüşü" musiqili dramından səhnələri hərəkətli lentə çəkdiyi zaman başladı.

İlk kinoşirkəti olan Asia Film (ing. China Cinema Company, a. k. a. Asia Film) Çində rus əsilli Amerika yəhudisi Benjamin Brodski tərəfindən 1909-cu ildə yaradılmışdır. Təcrübəli iş adamı Brodski hesab edirdi ki, Çində milyonlarla insanın iştirak etdiyi filmlərin icarəsi ona böyük gəlir gətirəcək, lakin ölkədəki qeyri-sabit siyasi vəziyyət xarici iş adamını üç ildən sonra şirkətə olan hüquqlarını iki tərəfdaş - T. Şaffertə və Yaşellə satmağa məcbur etdi. Sığorta agenti olan Yaşell kino sənayesi haqqında çox az şey bilirdi və tezliklə biznesi tanışı, gənc çinli Zhang Siçuana təhvil verdi və o, dostu, ssenarist Zheng Zhengqiu ilə birlikdə Çində ilk rejissorlardan biri oldu.

Böyük Şanxay nəşriyyatı 1917-ci ildə "Şanqyu" (Shangyu) kino şöbəsini yaratdı, kinoxronika və teatr filmlərinin çəkilişinə başladı. 1921-ci ildə "Yan Ruisheng" adlı ilk tammetrajlı bədii film çəkildi. Film iş adamı Yan Ruisheng tərəfindən məşuqəsi, fahişə Vanq Lianyinqin öldürülməsinin real hekayəsi

əsasında çəkilmişdir. Daha böyük realizm üçün filmin yaradıcıları baş qəhrəman roluna əsl qatilin əsl dostunu, fahişə roluna isə keçmiş fahişəni dəvət edirlər.

Zhang Siçuana və Zheng Zhengqiu 1922-ci ildə öz Mingxing şirkətini qurdular. Şirkət yarandıqdan qısa müddət sonra onun qurucuları arasında parçalanma baş verdi: Zhang Siçuan ictimaiyyət arasında tələbat olan komik qısametrajlı filmlərin çəkilməsində israrlı idi, Zheng Zhengqiu isə tammetrajlı əsərlərin yaradılmasını istədi. Başlanğıcda film şirkəti komik qısametrajlı filmlərə diqqət yetirirdi (1922-ci ildə buraxılmış ən qədim Çin filmi “İşçinin məhəbbəti” bu janra aiddir). Lakin tezliklə Zhangın ideyasının kommersiya baxımından uğursuz olduğu ortaya çıxdı və 1923-cü ildə o, Zhengqiunun təklifini qəbul etməyə razı oldu. Bundan sonra açıq-aydın mənəvi çalarları olan ilk film – “Yetim babanı xilas edir” ictimaiyyət arasında böyük uğur qazandı. 1924-1928-ci illərdə bu kinoşirkəti tərəfindən artıq 60-a yaxın bədii film istehsal edilmişdir. Filmlərin əksəriyyətinin əsas süjet xətti müxtəlif yaşlarda və fərqli sosial mənşəli qadınların əzab-əziyyət hekayəsi üzərində qurulmuşdu. Zheng Zhengqiu təkcə əyləndirmək deyil, həm də ictimaiyyəti maarifləndirmək məcburiyyətində olan “sosial kino”nun tərəfdarı kimi çıxış edirdi.

Şao qardaşları tərəfindən 1925-ci ildə yeni böyük bir kino şirkəti - Tianyi yaradıldı. O, öz növbəsində folklor dramları istehsal etməklə kinonun avropalaşmasına qarşı mübarizəni elan etdi və eyni zamanda sosial mövzulardan uzaqlaşdı. Kinoşirkətin istehsalı təkcə yerli tamaşaçıya deyil, həm də beynəlxalq bazara, xüsusən də Cənub-Şərqi Asiyadakı Çin diasporuna yönəlmişdi.

Çində 1929-cu ildə üçüncü ən böyük kino şirkəti olan Lianhua quruldu .

1925-ci ilə qədər ölkədə ümumilikdə 175 kinostudiya açıldı (onların əksəriyyəti özəl idi). Onlardan 141-i Şanxayda yerləşirdi. Bu kinostudiyaların bir çoxu sadəcə bir film buraxdı, bəziləri isə heç film çəkmədi. Bütün bunlara baxmayaraq bu dövr Çində özəl kinonun çiçəklənmə dövrü hesab edilir.

1930-cu illərin əvvəllərində kino əyləncə növü olmaqdan çıxaraq, vətəndaş məsuliyyəti qazanır, ciddi sosial problemləri ön plana çəkir. Bu sahədə əsas rol Mingxing kinoşirkətinin qurucusu Zheng Zhengqiuya məxsus idi. O, kinonun əyləncə funksiyasından əlavə, həm feodal, həm də yeni kapitalist Çin cəmiyyətinin problemlərini və ziddiyyətlərini işıqlandırmalı olduğunu fəal şəkildə müdafiə edirdi. “Qəzəbli axın” filmi (1933; Mingxing şirkəti) Çin “solçu” kinosunun ilk əsəri hesab olunur. Filmdə kəndlilərin torpaq sahibi tərəfindən istismarı nümayiş etdirilir. Kəndlilərin ağır zəhməti Çenq Buqaonun “Bahar ipəkqurdları” (1933) və “Balıqçının mahnısı” filmlərində öz əksini tapmışdır.

1930-cu illərdə bazarda, əsasən, üç kino şirkəti üstünlük təşkil edirdi: əvvəllər yaradılmış Mingxing, Tianyi və yeni yaradılmlş Lianhua kinoşirkəti. Həm Mingxing, həm də Lianhua getdikcə daha çox sol meyilli idi, Tianyi isə daha

az sosial yönümlü filmlər istehsal etməyə davam etdi. Eyni zamanda Kuomintang və ÇKP böyük kinoşirkətlərinə nəzarət uğrunda mübarizə aparırdılar ki, bu da onların istehsal etdikləri filmlərdə öz əksini tapırdı.

Bu dövrdə ilk böyük Çin kino ulduzları meydana çıxdı: Zhang Zhiyun, Hu De, Ruan Lingyu, Zhou Xuan, Zhao Dan, Jin Yan. Bu dövrün məşhur filmləri siyahısına "Yeni Qadınlar" (1934), "Balıqçının oğlu" (1934), "Yol ayrıcları" (1937), "Küçə mələyi" (1937) daxildir.

Yaponiyanın Çinə hücumu və Şanxayın işğalı Çin kinosunun "qızıl dövrü"nə son qoydu. Kino şirkətləri (Sinxua kinoşirkəti istisna olmaqla) bağlandı və kinorejissorlar Şanxaydan Honq Konqa, Çonqinqə və başqa yerlərə getdilər. Bununla belə, Şanxayda filmlərin istehsalı dayanmadı: Şanxaydakı xarici güzəştlər Yapon işğalı dənizində bir adaya çevrildi və Çin kino tarixində bu dövr "Tənha ada" kimi tanınır [4].

Çinin kino sənayesi 1945-ci ildən sonra yenidən inkişaf etməyə başladı. Şanxayda Mingxing və Lianhua studiyalarının əvəzinə yeni kinostudiyalar yarandı. 1946-cı ildə Cai Chusheng Şanxaya qayıtdı və "Lianhua kinocəmiyyəti"ni quraraq "Lianhua" adını yenidən canlandırdı. Eyni zamanda, dövrün ən əhəmiyyətli kino şirkətlərindən birinə çevrildi – "On min evin çıraqları" (1948), "Şərq bulaq suyunun axan çayları" (1947) və "Qarğalar və sərçələr" (1949) kimi şedevr filmlər çəkildi. Təqdim olunan filmlərin çoxunda Çan Kayşek rejimindən məyusluq göstərilirdi.

1949-cu ildə ÇXR yarandıqdan sonra yeni hakimiyyət kinoya xüsusi diqqət yetirməyə başladı. 1951-ci ildən başlayaraq köhnə Çin filmləri, eləcə də Hollivud və Honq Konq filmləri qadağan edildi, işçi, kəndli və əsgərlərin həyatından bəhs edən yeni filmlər çəkilməyə başladı. Bu dövrdə Şanxayın özəl kinoşirkətləri film istehsalını davam edirdi. Lakin 1952-ci ildə Şanxay kino müəssisəsi ilə birləşməsindən sonra özəl Çin kinosunun tarixi sona çatdı. Buna baxmayaraq kino tamaşaçılarının sayı getdikcə kəskin şəkildə artmağa başladı: 1949-cu ildə 47 milyon, 1959-cu ildə isə 415 milyon oldu. ÇXR yaranmasından Mədəni inqilabın başlanmasına qədər keçən 17 il ərzində ölkədə 603 bədii və 8342 sənədli film (xronika daxil olmaqla) çəkilmişdir.

Pekin Kino Akademiyası 1956-cı ildə açıldı. 1960-cı ildə ilk geniş ekranlı Çin filmi çəkildi. Eyni zamanda Çin xalq sənətlərindən geniş istifadə edən cizgi filmləri böyük populyarlıq qazandı . Bu dövrün ən məşhur cizgi filmi, Vanq Laiminqin London Film Festivalında mükafat qazanmış "Sun Vukong: "Səmavi salonlarda problem" filmidir ("Sun Wukong: Trouble in the Heavenly Halls").

Çində Mədəni inqilab zamanı film istehsalı ciddi şəkildə məhdudlaşdırıldı. Qeyd edək ki, əvvəllər çəkilmiş bütün filmlər qadağan edildi, bir çox rejissorlar repressiyaya məruz qaldılar (onlardan biri də məşhur animator Te Vey idi) [3].

Bu dövrdə bir neçə yeni film çəkildi, onlardan ən məşhuru inqilabi opera "Qırmızı qadınlar dəstəsi"nin balet versiyasıdır. Ölkədə 1967-ci ildən 1972-ci ilə qədər bədii filmlər demək olar ki, çəkilmirdi, 1972-ci ildən sonra Çində kino istehsalı yenidən canlanır, amma "dördlər dəstəsi"nin ciddi nəzarəti altında. Durğunluq illərindən sonra çəkilən ilk film rejissor Xie Cinin "Dəniz limanı" filmidir. Film "mədəni inqilab" zamanı hökumətin icazə verdiyi səkkiz inqilabi tamaşadan biri əsasında çəkilib. Bu dövrə aid filmlərdən biri də 1975-ci ildə rejissor Li Venhuanın çəkdiyi "Köhnə ilə qırılma" filmidir. Ölkədə "dördlər dəstəsi"nin həbsindən sonra kino istehsalı yenidən çiçəkləndi.

Mədəni inqilabdan sonra Çin tarixində bu dövrün yaratdığı psixoloji sarsıntıları göstərən filmlər yarandı. Bu janrın ən məşhur filmləri: Xie Jinin "İtirilmiş gənclik", Zhang Nuanxin "Tianyunşan dağının əfsanəsi" (Qızıl Xoruz Mükafatı 1981) və "Lotus kəndi" (Qızıl Xoruz Mükafatı 1987) [3].

1980-ci illərin ortaları "Çin kinorejissorlarının beşinci nəsli"nin meydana çıxması ilə yadda qaldı. Söhbət Mədəni inqilabdan sonra Pekin Kino Akademiyasının ilk məzunlarından gedir: 1982-ci ildə onu sonradan Zhang Yimou, Tian Zhuangzhuang, Chen Kayge və Zhang Junzhao kimi məşhurlaşan rejissorlar bitiriblər. Çjan Junzhaonun "Bir və səkkiz" (1983) və Çen Kaygenin "Sarı yer" (1984) filmləri geniş arenaya çıxan "beşinci nəslin" nümayəndələri hesab olunurlar. Məhz bu dövrdə Çin kinosu nüfuzlu kinofestivallardan mükafatlar qazanaraq geniş beynəlxalq arenaya çıxmağa başladı: "Qırmızı kaolyanq" (1988) "Qızıl ayı", "Qiu Ju məhkəməyə verir" (1992) "Qızıl Şir", "Əlvida, cariyəm" (1993) "Qızıl Palma budağı" mükafatlarını qazanmışdır. Bu rejissorların filmlərində əsasən rol alan, ən məşhur kino aktrisası Qonq Li oldu. Bundan əlavə, "beşinci nəslin" nümayəndələri arasında Vu Zinyu, Hu Mey və Çjou Xiaoven kimi rejissorlar da ÇXR-də şöhrət qazandılar.

1990-cı illəri kino rejissorlar "Çin kinematoqrafiyasının altıncı nəsli" adlandırırlar. Onlara bəzən "geri qayıdan kinosevər nəsli" də deyilir, çünki böyük dövlət maliyyəsinin və əlavə dəstəyin olmaması tez-tez ən ucuz mediadan (16-mm kinolent və ya rəqəmsal video kamera) istifadə etməklə aşağı büdcəli filmlərin qeyri-peşəkarlar tərəfindən sürətlə çəkilməsinə səbəb oldu. "Altıncı nəslin" məşhur nümayəndələri: Jia Zhangke, Wang Xiaoshuai və Zhang Yuandır. Rejissorların filmləri ÇXR hüdudlarından kənarda tanındıqdan sonra, "altıncı nəslin" bir sıra nümayəndələri xarici kinorejissorlarla birgə filmlər çəkməyə başladılar.

Çin kinematoqrafçılarının altıncı nəsli adlanan nəsil 2000-ci illərin ortalarında ölkənin sürətli iqtisadi inkişafı dövründə formalaşmağa başladı. İlhamlanmış və cəsarətli gənc rejissorlar əsl Çin haqqında filmlər çəkdilər. Vang Xiaoshuainin "Pekin velosipedi" 2001-ci ildə Berlin Film Festivalında Qran Pri

qazandı. Filmdə Pekinə işləmək üçün gələn gəncin həyatından bəhs olunur və əsrin əvvəllərində Çin cəmiyyətinin üzləşdiyi bərabərsizlik təsvir edilir.

Honq Konq və Makaonun ÇXR ilə birləşməsindən sonra ÇXR, Honq Konq və Tayvan kinematoqrafçılarının birgə istehsal etdiyi filmlər işıq üzü görməyə başladı. Bu cür əməkdaşlığın diqqətəlayiq nümunələri: "Çöməlmiş pələng, gizli əjdaha" ("Crouching Tiger Hidden Dragon" 2000), "And" ("Oath" 2005), "Huo Yuanjia" ("Huo Yuanjia" 2006), "Komandirlər" ("Warlords" 2007), "Qırmızı uçurum" ("Red Cliff" 2008-2009) filmləridir.

Çin kinosu müasir dövrdə təkcə sərt reallıqdan bəhs edən ciddi filmlərlə deyil, eyni zamanda, digər janrlarla da məşhurdur. Çin döyüş filmləri, ənənəvi əfsanələrə əsaslanan fantaziya və komediyalar hal-hazırda Çini dünyanın ikinci ən böyük film bazarına çevirib.

Çin müasir dünya kinosunun ən nüfuzlu ölkələrindən biridir. Ölkə indiki inkişaf həddi ilə bütün mümkün reytinqlərin zirvəsinə doğru irəliləyir və bəzilərinin fikrincə, yaxın zamanda Çin kinosu Hollivudu çox geridə qoya billəcək.

**Ədəbiyyat siyahısı:**


1. https://medeniyyet. az › page › news ›- Çin kinosu Hollivudla rəqabətə girir.
2. https://apa. az › art-news › Çin filmi bu il ən çox gəlir gətirən ekran işi olub.
3. Торопцев, С. А. Кино и «культурная революция» в Китае . -М. : Наука, - 1978.
4. Торопцев, С. А. Очерк истории китайского кино( 1896-1966). - М. : Наука. - 1979.
5. 5. https://dspace. spbu. ru › Национальные особенности китайского современного кино.
6. https://ru. wikipedia. org › Кинематограф Китая.
7. http://www. china. org. cn › Развитие китайского кинематографа - China.
8. https://www. wipo. int › Расцвет киноиндустрии Китая - WIPO.
9. https://www. kinopoisk. ru › Гид по китайскому кино: Красотки-оборотни и призраки по Фрейду.

**Гульнара Керим кызы Гусейнова**

## ЗАРОЖДЕНИЕ И РАЗВИТИЕ КИТАЙСКОЙ КИНЕМАТОГРАФИИ

**Резюме:** Китай является одной из самых престижных стран современного мирового кино. Сегодня в китайском кинонаряду с серьезными фильмами осуровой реальности существуют и другие жанры. Китайские боевики, фантази и комедии, основанные на традиционных легендах, превратили Китай во второй самый большой кинорынок мира. На современном этапе развития страна движется к рейтинговым пикам и согласно мнениям некоторых людей, в ближайшем будущем Китай сумеетобогнать Голливуд.

**Key words:** Китай, кино, история, культурная революция, фильм, награда.

**Gulnara Kerim qizi Huseynova**

## THE BIRTH AND DEVELOPMENT OF THE CHINESE CINEMATOGRAPHY

**Summary:** China is one of the most prestigious countries of the modern world cinema. Today in the sphere of Chinese cinema are famous not only serious films about a strong reality but also other genres. Chinese action films, fantazies and comedies based on traditional legends have changed China into the second largest film market of the world. With the present development stage the country is moving to all possible rating peaks and according to the idea of some people in the near future Chinese cinema will be able to leave Hollywood behind.

**Key words:** China, cinema, history, cultural revolution, film, award.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**